Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin
9 fevral 2020-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçirilən növbədənkənar seçkilərin seçkiqabağı təşviqat mərhələsi üzrə müşahidələrinə dair

**ARALIQ HESABATI**
(17 yanvar-5 fevral)

# I. Xülasə

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycan Respublikası Milli Məclisinə 9 fevral 2020-ci ildə keçirilən növbədənkənar seçkilərin uzunmüddətli müşahidəsini iki mərhələ - namizədlərin qeydiyyat prosesi və seçkiqabağı təşviqat kampaniyası üzrə aparıb. Uzunmüddətli müşahidənin birinci mərhələsi (9 dekabr 2019 – 16 yanvar 2020-ci il) üzrə Aralıq Hesabat 17 yanvar 2020-ci ildə yayılıb[1]. Hazırkı hesabat seçkiqabağı təşviqat mərhələsi üzrə uzunmüddətli müşahidələrin nəticələri əsasında hazırlanıb.

SMDT 9 fevral 2020-ci il parlament seçkilərinin uzunmüddətli müşahidəsini təlim keçmiş 18 nəfər müşahidəçi vasitəsilə həyata keçirib. Hazırda təqdim olunan hesabat 80 seçki dairəsindən 20 gün ərzində (17 yanvar – 5 fevral, 2020-ci il) daxil olmuş məlumatları əhatə edir.

SMDT hesab edir ki, 9 fevral 2020-ci il növbədənkənar parlament seçkiləri dəyərləndirilərkən, seçki prosesinin bütün mərhələləri – seçkiqabağı siyasi mühit, qanunvericiliyin vəziyyəti, seçkidə sərbəst iştirak imkanları, namizədlərin irəli sürülməsi və qeydiyyatı, seçkiqabağı təşviqatın təşkili, səsvermə və səslərin hesablanması prosesləri ayrılıqda öyrənilməli, bu sahədə Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq öhdəliklərinə istinad olunmalıdır.

SMDT təəssüflə qeyd edir ki, 9 fevral 2020-ci il növbədənkənar parlament seçkiləri öncəsi və seçkiqabağı təşviqat dövründə siyasi mühitin demokratikləşməsi, ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqlarının müdafiəsi yönündə irəliləyişlər baş verməyib. Parlament seçkilərinin geridə qalan hər iki mərhələsində ictimai-siyasi fəallara, deputatlığa namizədlərə və onların yaxınlarına qarşı təzyiq halları qeydə alınıb. Son illər artan siyasi repressiyalar nəticəsində azadlıqdan məhrum olan 100-dən artıq siyasi məhbusun azad olunması yönündə hakimiyyət siyasi iradə nümayiş etdirməyib.[2]

SMDT məmnunluqla qeyd edir ki, 2020-ci il parlament seçkilərinin ikinci mərhələsində siyasi fəallıq, siyasi müzakirələrə və ümumi seçki prosesinə ictimai maraq 2015-ci il parlament seçkiləri ilə müqayisədə xeyli yüksəlib. Bununla belə dövlət büdcəsindən

[1] SMDT-nin Birinci Aralıq Hesabatı: https://bit.ly/2RUayD6
[2] Vahid siyasi məhbus siyahısı üzrə İşçi Qrupun siyahısı, 25 noyabr 2019-cu il, https://bit.ly/2OtB97H

maliyyələşən televiziyaların heç biri deputatlığa namizədlər və onların təmsil olunduğu siyasi partiyalar və təşkilatların seçki platformalarının ictimaiyyətə təqdimatı, habelə yerli və milli səviyyəli problemlərin müzakirəsi üçün ödənişsiz efir vaxtı ayırmayıb. Nəticədə İctimai Televiziya da daxil olmaqla əksər televiziyalar seçkilərdə iştirak edən namizədlərin mövqeləri və baxışları barədə seçicilərin məlumatlandırılması, seçicilərin qarşıduran tərəflər arasında seçim imkanlarının artırılması yönündə ictimai öhdəliklərini icra etməyib.

Uzunmüddətli müşahidəçilər seçkiqabağı təşviqat mərhələsində bəzi namizədlərin seçicilərlə görüşlərinin təşkilində yerli icra hakimiyyətləri nümayəndələrinin inzibati resurslardan istifadə hallarını, habelə müstəqil və müxalif namizədlərin seçicilərlə görüşlərinə müdaxilə və təzyiq hallarını qeydə alıblar.

Bu mərhələdə müşahidəçilər 46 seçki dairəsində namizədlərin təşviqat materiallarının məhv edilməsi hallarını, 63 seçki dairəsində yerli icra hakimiyyətləri tərəfindən iqtidaryönlü namizədlərlə görüşə seçicilərin təzyiqlə gətirməsini və 27 seçki dairəsində namizədlərə görüş üçün ayrılmış yerlərin (açıq və qapalı) əlverişli olmadığını qeydə alıblar.

SMDT hesab edir ki, qarşıduran siyasi tərəflər arasında ictimai müzakirələrin keçirilməməsi, televiziyalarda seçki prosesinə laqeyd münasibət və pulsuz efir imkanlarının olmaması səbəbindən seçkiqabağı təşviqat milli səviyyədə cərəyan etməmiş, seçki yarışı seçki dairələrinin 3/1-də namizədlərin gerçək siyasi rəqabəti kimi baş tutmayıb.

SMDT ümid edir ki, 9 fevral 2020-ci il parlament seçkiləri günü seçki komissiyaları səsvermə və səslərin sayılması prosesinin qanuni qaydada keçirilməsi, seçki prosesinə kənar müdaxilələrin, xüsusən də yerli icra strukturlarının müdaxilə etməməsi naminə müstəqil və obyektiv idarəçilik nümayiş etdirəcək.

## II. Giriş

Bu hesabat Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) 9 fevral 2020-ci il növbədənkənar parlament seçkiləri üzrə uzunmüddətli müşahidələrinin nəticələri əsasında hazırlanıb. Uzunmüddətli müşahidə üzrə bu hesabatdan öncə 17 yanvar 2020-ci ildə namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi üzrə birinci Aralıq Hesabat yayılıb.[3] Hazırkı hesabat namizədlərin seçkiqabağı təşviqat dövrünə aid tədbirlərin, bəzi siyasi hadisələrin, həmçinin seçki komissiyalarının fəaliyyətinə dair müşahidələri əhatə edir. Hesabat SMDT-nin yerli müşahidəçilik üzrə qaydaları əsasında təlim keçmiş 18 nəfər könüllü müşahidəçinin dəstəyi ilə hazırlanıb. Müşahidəçilərin təqdim etdiyi məlumatlarla yanaşı SMDT seçki komissiyaları üzvləri, siyasi partiyalar, müxtəlif namizədlər, onların nümayəndələri ilə əlaqə saxlamaqla daxil olan məlumatları təhlil edib, zərurət yarandıqda uyğun şəxslərlə dəqiqləşdirib.

SMDT 9 fevral 2020-ci il parlament seçkilərinin müşahidəsini uzunmüddətli və qısamüddətli olmaqla həyata keçirir. Uzunmüddətli müşahidəçilik seçkilər elan olunduğu gündən başlayıb və seçkilərin nəticələri rəsmi dərc edildiyi günə qədər davam edəcək. Qeyd edək ki, müşahidəçilərdən hesabatlar xüsusi onlayn sorğu anketləri əsasında həftədə bir dəfə qəbul

[3] SMDT-nin Birinci Aralıq Hesabatı: https://bit.ly/2RUayD6

edilib. Ümumilikdə, 7 dəfə həftəlik hesabat qəbul edilib və bu proses 80 seçki dairəsi və 53 inzibati rayonu əhatə edib.

SMDT xüsusi təlim keçmiş və fərdi qaydada seçki komissiyalarında qeydiyyata alınmış müstəqil müşahidəçilər vasitəsilə ölkənin 5442 seçki məntəqəsi üzrə təsadüfi seçilmiş seçki məntəqələrində seçki günü qısamüddətli müşahidəni həyata keçirəcək.

SMDT Azərbaycanda azad, ədalətli və şəffaf seçkilərin keçirilməsi, vətəndaş cəmiyyəti və demokratiyanın inkişafı sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatıdır. SMDT 1 dekabr 2008-ci ildə qeydiyyatı ləğv edilmiş Seçki Monitorinq Mərkəzinin (SMM) bazası əsasında yenidən təsis olunub. Xatırladaq ki, 14 may 2008-ci ildə SMM-in qeydiyyatı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əsassız iddiası əsasında Xətai Rayon Məhkəməsi tərəfindən ləğv edilib. Bu hadisədən sonra SMM-in təsisçisi və üzvü olmuş şəxslər SMDT-ni təsis ediblər.

SMDT (keçmiş SMM) 2001-ci ildən Azərbaycanda keçirilən 15 seçkinin monitorinqini həyata keçirib. Seçkilərin monitorinqi ilə bağlı SMDT indiyədək 14000 nəfərdən artıq vətəndaşa 600-dən çox təlim keçib və onların seçki komissiyalarında akkreditə olunmalarına hüquqi-texniki yardım göstərib.

SMDT ATƏT-ə üzv olan ölkələrin vətəndaş cəmiyyəti təşkilatlarını (VCT) birləşdirən Seçkilərin Monitorinqi Təşkilatlarının Avropa Şəbəkəsi (ENEMO), Şərq Tərəfdaşlıq ölkələrinin Vətəndaş Cəmiyyəti Forumu, Demokratik Seçkilər üzrə Avropa Platformasının (EPDE) və Yerli Seçki Müşahidəçilərinin Qlobal Şəbəkəsinin üzvüdür. SMDT seçkilərin müşahidəsi sahəsində Yerli Seçki Müşahidə Təşkilatlarının Qlobal Bəyannaməsinin [4] prinsipləri əsasında fəaliyyət göstərir

## III. Seçkiqabağı siyasi mühit

Seçkiqabağı təşviqat dövründə siyasi azadlıqlara, xüsusilə sərbəst toplaşmaq, birləşmək və ifadə azadlığına son illər artan hüquqi-siyasi məhdudiyyətlər qalmaqda davam edib. Bu mərhələdə siyasi partiyalar və vətəndaş qrupları tərəfindən kütləvi aksiyalar və toplantıların keçirilməsi cəhdləri olmayıb. Bununla yanaşı dövlət televiziyalarında müxalif siyasi baxışlı şəxslərin iştirakı ilə hər hansı ictimai müzakirə və ya seçkinin gedişi ilə bağlı verilişlər yayımlanmayıb.

Ölkədə 100-dən artıq şəxsin siyasi motivlərlə həbsdə olması Avropa Şurası Parlament Assambleyasının 30 yanvar 2020-ci ildə keçirilən qış sessiyasında müzakirə olunub. AŞPA-nın Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi Torhildur Sunna Evarsdottirin hesabatı əsasında siyasi məhbuslarla bağlı qətnamə qəbul edilib. [5] Qətnamədə Avropa Şurasının kriteriyalarına uyğun olaraq siyasi məhbus hesab edilən şəxslərin azadlığa buraxılması, siyasi motiv olması ehtimal edilən şəxslərin işlərinin ədalətli və tərəfsiz məhkəmə tərəfindən müntəzəm baxılması, siyasi motivli həbslərin təkrarlanmaması üçün məhkəmə, prokurorluq, polis sistemi və inzibati həbslər də daxil olmaqla məhkəmə-hüquq sistemindəki problemlərə

[4] Yerli Seçki MüşahidəTəşkilatlarının Qlobal Bəyannaməsi, https://gndem.org/declaration-of-global-principles/

[5] AŞPA-nın Azərbaycanda siyasi məhbus işləri ilə bağlı 2322 saylı Qətnaməsi, http://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=28584&lang=en

tutarlı şəkildə müdaxilə edilməsi, Avropa Məhkəməsi qərarlarının icra edilməsi Azərbaycan hökümətinə tövsiyə edilib.
Təşviqat dövründə müxalifətin və müstəqil şəxslərin əsas tribunası yenə də sosial media və müstəqil xəbər saytları olub. 2017-ci ilin martından etibarən bəzi müstəqil və müxalif veb səhifələrə ölkə daxilində giriş məhdudiyyəti qalmaqda davam edib. Bəzi hallarda Azadlıq Radiosu və Meydan TV-nin veb səhiflərinə giriş mümkün olsa da, Azadlıq qəzeti, Turan TV və Azərbaycan Saatının səhifələri də daxil olmaqla 40-dan artıq veb səhifənin girişinə məhdudiyyət aradan qalxmayıb. Xatırladaq ki, parlamentin 2017-ci ildə qəbul etdiyi normalara əsasən Rabitə və Yüksək Texnologiyalar Nazirliyi məhkəmə qərarı olmadan internet informasiya mənbələrinə girişə məhdudiyyət qoymaq səlahiyyəti əldə edib.[6]
İnzibati həbslər və pis rəftarın siyasi fəalları cəzalandırma vasitəsi kimi istifadə halları təşviqat dövründə də müşahidə edilib.
Yanvarın 13-də Xalq Cəbhəsi Partiyasının üzvü Əlizamin Salayev polis zabiti ilə mübahisə etdiyi üçün Bakının Səbail Rayonu ərazisində saxlanılaraq həmin rayonun polis bölməsinə aparılıb. Ona məhkəmədə 30 sutka inzibati həbs cəzası verilib. Yaxınları Salayevin polis idarəsində işgəncə və ləyaqəti alçaldan rəftara məruz qaldığını bildiriblər.
Yanvarın 30-da Həqiqət Sosialist Hərəkatının üzvü Ənvər Cəlilov seçkiqabağı təşviqat zamanı boykotu təşviq edən bukletlər payladığı üçün saxlanılaraq, Xətai rayon polis idarəsinin 36-cı polis bölməsinə aparılıb və orada barəsində inzibati xəta haqqında protokol tərtib edilərək 50 AZN məbləğində cərimələnib.
Fevralın 3-də Müsavat Partiyasının Facebook səhifələri, həmçinin partiyaya yaxın mətbuat orqanı olan "Basta" veb portalı ələ keçirilib, səhifələrdə izləyicilərin sayı azaldılıb. Partiya hələ də səhifələrin və veb portalın fəaliyyətini bərpa edə bilməyib.

## IV. Seçkiqabağı təşviqat kampaniyası

Seçki Məcəlləsinə əsasən seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılmaqla ümumilikdə 22 gün davam edir. 9 fevral 2020-ci il növbədənkənar parlament seçkiləri dövründə seçkiqabağı təşviqat rəsmi olaraq 17 yanvarda başlayaraq, fevralın 8-də başa çatacaq.
Qanuna əsasən seçkiqabağı təşviqat kütləvi informasiya vasitələri ilə, kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.) keçirilməsi, çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə və qanunla qadağan edilməyən digər üsullarla aparıla bilər.[7]

### *a) Namizədlərin qeydiyyatı mərhələsinin nəticələri*

Seçkiqabağı təşviqat kampaniyası başladıqdan sonra qeydə alınmış 1560 namizədin sayında azalma başlayıb. MSK-nın açıqladığı rəsmi məlumata görə bu mərhələdə 235 nəfərin öz namizədliyini geri götürməsi nəticəsində seçki günü 1325 namizəd 125 seçki dairəsində eyni

[6] İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında qanun: http://e-qanun.gov.az/framework/3525
[7] Azərbaycan Respublikası Seçki Məcələsi, Maddə 74

sayda deputat yeri uğrunda yarışacaq. Ancaq müşahidəçilərin məlumatlarına görə, bəzi namizədlər yerli icra strukturlarının təzyiqləri nəticəsində öz namizədliyini geri götürüblər.
SMDT-nin müşahidələri göstərir ki, seçkidə iştirak edən siyasi partiyaların təmsilçilik sayı ötən illərlə müqayisədə xeyli aşağı olub. Məsələn, Müsavat partiyasının üzvü olan namizədlərin sayı 60 nəfər olsa da, onlardan 37 nəfər namizədliyini öz təşəbbüsü ilə irəli sürüb. Sayca ən çox namizədə malik Yeni Azərbaycan Partiyasının təmsilçiləri isə (partiya tərəfindən 122 nəfər irəli sürülüb) bəzi seçki dairələrində yerli rayon təşkilatları və tərəfdarlarının dəstəyini almayıblar. Bəzi seçki dairələrində isə qeydə alınmış namizədlər ümumiyyətlə seçkiqabağı təşviqat kampaniyasını sönük və istəksiz şəkildə həyata keçiriblər. Məsələn, müşahidəçilər 57 seçki dairəsində 170 nəfər namizədin seçkiqabağı təşviqatı heç bir formada aparmadığını qeydə alıblar.
Ümumilikdə, 5 siyasi partiyanın (Yeni Azərbaycan, Müsavat, Ümid, Bütöv Azərbaycan Xalq Cəbhəsi və Vətəndaş Həmrəyliyi partiyaları) və 2 qeyri-rəsmi seçki blokunun (REAL Cumhuriyyətçilər və Hərəkət ittifaqları) namizədləri digər siyasi partiya və qruplarla müqayisədə nisbətən çox seçki dairəsində namizədlə təmsil olunublar. Ancaq bununla belə son iki parlament seçkiləri ilə müqayisədə partiya və qeyri-rəsmi seçki blokları tərəfindən irəli sürülən namizədlərin sayı öz təşəbbüsü ilə namizəd olan şəxslərdən az olub[8].
SMDT seçkiqabağı təşviqat dövründə qarşıduran siyasi tərəflər və ayrı-ayrı namizədlər arasında rəqabət mühiti ilə bağlı dəyərləndirmə apararaq, ölkə üzrə seçkiqabağı təşviqat prosesinin milli səviyyəli yarışdan daha çox müxtəlif seçki dairələri ərazisində namizədlərin fərdi yarışı kimi cərəyan edib. Ölkə üzrə 37 seçki dairəsində iqtidaryönlü namizədlərə qarşı alternativ olaraq hər hansı müxalif və ya müstəqil namizəd yarışmayıb.

### b) *Mediada seçkiqabağı təşviqatın təşkili*

Seçki Məcəlləsinə əsasən 60-dan artıq seçki dairəsində qeydə alınmış namizədləri olan siyasi partiyalar və ya seçki blokları dövlət hesabına maliyyələşən teleradio verilişləri təşkilatlarının ayırdıqları ödənişsiz efir vaxtından istifadə edə bilər.[9] Namizədlərin qeydiyyatı mərhələsinin yekunlarına əsasən 60-dan artıq seçki dairəsində qeydə alınmış namizədə malik YAP təmsilçiləri İctimai Televiziyada pulsuz efir vaxtından istifadə etməkdən imtina ediblər. İTV-nin namizədlər üçün təsdiq etdiyi ödənişli efir vaxtının qiymətlərini[10] əksər müxalif və müstəqil namizədlər bahalı hesab edərək, ödənişli efir vaxtı əldə etmək üçün müraciət etməyiblər. Ümumiyyətlə, seçkiqabağı təşviqat dövründə dövlət və özəl televiziya kanalları təşviqat prosesinin işıqlandırılmasına yer ayırmayıb, əsasən MSK-nın iclasları və rəsmi məlumatlarını yaymaqla kifayətlənib.
Namizədlərin böyük əksəriyyəti öz təşviqat kampaniyasını sosial media platformaları – Facebook, Youtube və Instagram üzərindən qurmağa üstünlük verib. Bu sahədə müxalif və müstəqil namizədlər xüsusilə fərqlənib. Ancaq SMDT-nin müşahidələri göstərir ki, iqtidaryönümlü namizədlər, xüsusən də öz təşəbbüsü ilə namizədliyini irəli sürən, ancaq

[8] Bax: 1 saylı Əlavə
[9] Azərbaycan Respublikasının Seçki Məcəlləsi, Maddə 80
[10] Ödənişli seçkiqabağı təşviqata qoşulması ilə bağlı MSK-ya məlumat təqdim etmiş KİV-lər, http://www.msk.gov.az/az/newsmsk/1103

hakimiyyətə yaxınlığı ilə seçilən namizədlər təşviqatını sosial media vasitəsilə qurmağa çalışıb.
Ümumiyyətlə, seçkiqabağı təşviqatda sosial medianın rolu ötən illərlə müqayisədə daha da artaraq seçicilərlə namizədlər arasında ünsiyyətin qurulmasında ciddi rol oynayıb. Bununla belə televizyaların prosesə qoşulmaması seçki ilə bağlı milli səviyyəli məlumatlanmaya mənfi təsir edib.

### c) *Kütləvi tədbirlər və seçicilərlə görüşlər*

MSK seçkiqabağı təşviqat dövründə kütləvi tədbirlərin keçirilməsi yolu ilə namizədlərin öz təşviqatını aparması üçün 118 seçki dairəsi üzrə 128-i açıq, 128-i qapalı olmaqla toplam 256 yer müəyyən edib.[11]
Müşahidəçilərin verdiyi məlumata görə, namizədlərin seçicilərlə görüşləri üçün nəzərdə tutulmuş yerlərin əksər hissəsi məkanların yer tutumu, ərazinin nəqliyyatla çatımlığı və şərait baxımından əlverişli deyil. Məsələn, 30 saylı Suraxanı birinci seçki dairəsinin qapalı görüş üçün nəzərdə tutulan Zığ qəsəbəsində yerləşən 100-120 nəfərlik Mədəniyyət evi görüşlər üçün çox əlverişsiz vəziyyətdədir, pəncərələrinin şüşələri qırıqdır və bina qızdırılmır. Seçicilərin əksər hissəsi Hövsan qəsəbəsində yerləşən seçki məntəqələri ərazisində yaşasa da, görüş yeri Zığ qəsəbəsində ayrılıb və həmin məkana birbaşa marşrut xətti işləmir. Müşahidəçilər 27 seçki dairəsində təşviqat görüşləri üçün yerlərin əlverişsiz olduğunu qeydə alıblar.
Bəzi hallarda qapalı yerlərdə ölkə başçısı və hakim siyasi partiyanın sədri İlham Əliyevin fotoları müxalif və müstəqil namizədlərin istəyinə baxmayaraq, həmin yerlərdən götürülməyib. Məsələn, fevralın 2-də REAL partiyasının sədri İlqar Məmmədov 40 saylı Kəpəz ikinci seçki dairəsinin ərazisində namizədlər üçün ayrılmış qapalı görüş zalının divarından YAP təsisçisi Heydər Əliyevin və ölkə başçısı, YAP sədri İlham Əliyevin şəkillərinin olmasına etiraz etsə də, müəssisə rəhbərliyi onları çıxarmaqdan imtina edib.
Bəzi DSK-lar bütün namizədlərə qapalı məkanlardan istifadə üçün namizədlər arasında bərabər qaydada istifadəni təmin etməyiblər. Məsələn, 23 saylı Nəsimi-Səbail seçki dairəsində namizəd Toğrul Vəliyev yanvarın 14-də görüş keçirmək üçün DSK sədrinə müraciət edib. Ona yanvarın 17-də müraciət etmək lazım olduğunu bildiriblər. Həmin tarixdə Vəliyev görüş üçün müraciət edəndə ona yanvarın 25-dək bütün yerlərin digər namizədlərlə görüş üçün ayrıldığını bildiriblər.
Müşahidəçilər bir çox seçki dairələrində YAP-dan olan və ya hakimiyyətə loyal olan müstəqil namizədlərin seçicilərlə görüşlərinin təşkilinə yerli icra hakimiyyəti nümayəndələrinin cəlb olunmasını qeydə alıblar. Məsələn, 57 saylı Kürdəmir seçki dairəsində namizəd Əminə Ağazadənin 30 yanvarda Kürdəmir rayon Gənclər Evində seçicilərlə görüşünə Kürdəmir rayon icra hakimiyyətinin tapşırığı ilə Pirili və Cəyli kənd orta məktəblərinin müəllimləri məcburi şəkildə gətirilib.
Yanvarın 22-də 33 saylı Xətai birinci seçki dairəsində YAP-dan namizəd Hüseynbala Mirələmovun Bakı kinoteatrında seçicilərlə görüşünə 202 saylı uşaq bağçasının, 17, 261 və

---

[11] 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçkiqabağı təşviqat üçün ayrılmış daimi görüş yerlərinin siyahısı, http://www.msk.gov.az/az/newsmsk/1106/

95 saylı orta məktəblərin müəllimləri və valideynləri, həmçinin ərazidə yerləşən poliklinikanın həkimləri cəlb edilib.
Yanvarın 23-ü 25 saylı Nizami ikinci seçki dairəsindən YAP-ın namizədi Sədaqət Vəliyevanın seçicilərlə görüşünə gətirilən orta məktəb müəllimləri müşahidəçilərə toplantı və namizəd barədə məlumatsız olduqlarını, çalışdıqları məktəbin rəhbərliyinin tapşırığı əsasında gəldiklərini bildiriblər.
SMDT ilə əməkdaşlıq edən müşahidəçilər bu mərhələdə 63 seçki dairəsində yerli icra hakimiyyəti strukturlarının bəzi namizədlərin xeyrinə inzibati resurslardan istifadə edərək, seçicilərlə görüşlər təşkil etməsini qeydə alıblar[12].
Seçki Məcəlləsi bütün namizədlərin bərabər hüquqa malik olduğu və bərabər öhdəliklər daşıdığını vurğulayaraq inzibati resursların hər hansı bir namizədin xeyrinə istifadəsini qadağan edir.[13]
Bəzi dairələrdə DSK-lar, icra və bələdiyyə strukturları tərəfindən namizədlərin görüşlərinə maneələr yaradılıb. Məsələn, 95 saylı seçki dairəsindən müstəqil namizəd Vüqar Əliyev namizədlər üçün ayrılan Tərtər Mədəniyyət Evində seçicilərlə görüş keçirmək istəsə də, DSK ondan Tərtər rayon icra hakimiyyətindən razılıq alınmasını tələb edərək, görüşün keçirilməsinə icazə verməyib. Fevralın 3-də Vüqar Əliyevin Tərtər rayon Yuxarı Qapanlı kəndinə seçicilərlə görüşünə kəndin bələdiyyə sədri müdaxilə edərək, seçicilərin görüşə gəlməməsi üçün təzyiq edib.
Fevralın 4-də 76 saylı Lənkəran-Astara seçki dairəsindən müstəqil namizəd Xalid Bağırovun təşviqat avtomobilini Lənkəran rayon polis şöbəsi əməkdaşları saxlayaraq, təşviqat üçün xüsusi icazənin lazım olduğunu bildiriblər. Namizəd DSK-ya müraciət edərək, razılıq alsa da, avtomobili idarə edən sürücü ona edilən təzyiq nəticəsində xidmət göstərməkdən imtina edib.
SMDT-nin bu mərhələ üzrə apardığı müşahidələr göstərir ki, seçkiqabağı təşviqat dövründə namizədlər daha çox qapı-qapı görüşlərinə üstünlük verərək, açıq və qapalı məkanlarda az sayda görüşlər keçiriblər. Seçkiyə qatılan siyasi partiyalar və seçki bloklarının heç biri kütləvi nümayişlər və mitinqlər keçirməyə cəhd etməyib.

### *d)* Çap materialları vasitəsilə təşviqatın aparılması

Namizədlər çap materiallarının yayılmasını əsasən iki formada təmin etməyə çalışıblar. Plakatlar üçün ayrılmış yerlərin siyahısı DSK-lar tərəfindən müəyyən edilib və hər bir seçki məntəqəsi ərazisində bir lövhə müəyyən edilib. Bəzi hallarda xüsusi mülkiyyətçilərlə razılaşma əsasında evlərin, mağaza və iaşə obyektlərinin üzərində plakatların yerləşdirilməsinə nail olublar. İkinci formada çap materiallarının yayılması namizədlər və onların könüllüləri vasitəsilə seçicilər arasında kütləvi paylama yolu ilə reallaşıb.
SMDT-nin müşahidəçiləri ölkə üzrə 31 seçki dairəsində namizədlərin plakatlarının məlumat lövhələrindən qoparıldığını və ya məhv edildiyini qeydə alıblar. Məsələn, 28 saylı Sabunçu üçüncü seçki dairəsindən Ümid partiyasından namizəd Mehriban Sadıqova təşviqat materiallarının məhv edilməsiylə bağlı DİN-ə müraciət edib.

[12] Seçkiqbağı təşviqat mərhələsində qeydə alınmış pozuntuların təsnifatı ilə 2 saylı Əlavədə tanış olun
[13] Azərbaycan Respublikası Seçki Məcəlləsi, Maddə 55, 69

19 saylı Nərimanov birinci seçki dairəsindən namizəd Vəliyyədin Quliyevin 57 saylı orta məktəbdə yerləşən 1 və 2 saylı məntəqələrdə, 177 saylı orta məktəbin ərazisində yerləşən 23 və 24 saylı məntəqələrdə və Tərəqqi liseyində yerləşən 5 və 6 saylı məntəqələrdə yapışdırılan plakatları məhv edilib.
Təşviqat materiallarının məhv edilməsi halları ilə bağlı müşahidəçilər 46 seçki dairəsi barədə məlumat veriblər.

### *e)* Seçki iştirakçılarına təzyiqlər

Seçki qanunvericiliyinə görə heç kəs seçkidə iştirak etməyə və ya etməməyə, təzyiq vasitəsilə namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya etməməyə məcbur edilə bilməz[14] və bu cür hallar qanunvericiliklə nəzərdə tutulan məsuliyyətə səbəb olur.[15] Bununla belə seçki içtirakçılarına xüsusilə namizədlərə təzyiqlərlə bağlı çoxsaylı faktlar müəyyən edilib.
SMDT-nin bu mərhələdə qeydə aldığı əsas təzyiq halları bəzi namizədlərin yerli icra strukturları vasitəsilə öz namizədliklərini geri götürməyə məcbur edilməsidir. Məsələn, müşahidəçilər namizədliyin geri götürülməsi ilə bağlı təzyiq hallarını 21 seçki dairəsində qeydə alıblar. Bu dairələrdə 44 nəfər yerli icra hakimiyyəti strukturlarının təzyiqləri nəticəsində namizədliyini geri götürdüyünü bildirib.
57 saylı Kürdəmir seçki dairəsində müstəqil namizəd Ruhiyyə Yaqubova DSK sədri Əbülfət Mikayılov və Kürdəmir rayon icra hakimiyyətinin təzyiqi nəticəsində öz namizədliyini geri götürməyə məcbur edilib.
Ağsu rayon icra hakimiyyətinin nümayəndələri 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən qeydə alınmış müstəqil namizədlər Kamil Həmidov, Ayaz Qocamanov və Aytən Piriyevaya təzyiq edərək, öz namizədliklərini geri götürmələrini tələb ediblər.
Bəzi namizədlərin isə namizədliklərini geri götürmələri üçün qohumlarına təzyiqlər edilib. 88 saylı Göyçay seçki dairəsində Milli İstiqlal Partiyasının namizədi Teyyub Hüseynli namizədliyini geri götürməsi üçün qohumlarına təzyiqlər edildiyini bildirib.

## V. Seçki Komissiyalarının idarəçiliyi

Seçkiqabağı təşviqat mərhələsində Dairə və Məntəqə Seçki komissiyalarının fəaliyyətində əvvəlki illərdə qeydə alınmış ənənəvi çatışmazlıqlar müşahidə olunub.

### a) Seçki komissiyalarının şəffaflığı

Müşahidəçilərin qeydə aldığı əsas çatışmazlıq aşağı seçki komissiyalarının fəaliyyətində şəffaflıq prinsipinin pozulması halları olub. Bəzi komissiyalar müşahidəçilərin sorğularına cavab verməkdən imtina edərək, onları seçki komissiyalarının iclasları barədə məlumatlandırmayıblar. Məsələn, 29 saylı Səbail Seçki Dairələrində komissiya üzvləri

[14] Azərbaycan Respublikası Seçki Məcəlləsi, Maddə 2.6.17, 115
[15] Azərbaycan Respublikası Cinayət Məcəlləsi, Maddə 159-161 və İnzibati Xətalar Məcəlləsi, Maddə 164-179.

iclasların hər həftə keçirildiyini bildirsələr də, namizədlərə iclaslar barədə məlumat verilməyib. İclasların gündəliyi barədə məlumat lövhəsinə hər hansı məlumat vurulmayıb, gündəliklə tanış olmaq istəyən müşahidəçilərin isə bu istəyi qəbul edilməyib. Bu cür məhdudiyyətlər 16 saylı Yasamal ikinci, 18 saylı Nərimanov-Nizami, 19 saylı Nərimanov birinci, 20 saylı Nərimanov ikinci, 21 saylı Nəsimi birinci, 22 saylı Nəsimi ikinci, 23 saylı Nəsimi-Səbail, 29 saylı Səbail, 31 saylı Suraxanı ikinci, 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 35 saylı Xətai üçüncü, 88 Saylı Göyçay seçki dairələrində də qeydə alınıb.
Bir çox dairələrdə namizədlərin səlahiyyətli nümayəndələrinin DSK-ların iclaslarında iştirakına maneə törədilib, iclaslar haqqında onlara öncədən məlumat verilməyib, iclasda iştirak edən səlahiyyətli nümayəndələrin sayına məhdudiyyət qoyulub. Müşahidəçilər bu cür halları 21 saylı Nəsimi birinci, 73 saylı Lənkəran şəhər, 74 saylı Lənkəran kənd, 36 saylı Xətai dördüncü, 15 saylı Yasamal birinci, 9 saylı Binəqədi, 34 saylı Xətai ikinci, 26 saylı Sabunçu birinci, 28 saylı Sabunçu üçüncü, 63 saylı Sabirabad birinci seçki dairələrində qeydə alıblar.

**b) Seçici siyahılarının dəqiqləşdirilməsi**

MnSK-lar seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahılarını seçicilərə bu barədə məlumat verməklə səsvermə gününə azı 35 gün qalmış təqdim edir və bunun üçün müvafiq şərait yaradır.[16] MSK-nın təqvim planına uyğun olaraq, seçici siyahıları yanvarın 5-dək məlumat lövhələrində yerləşdirilməlidir. Qanuna əsasən seçici siyahıları səsvermə otağından kənarda, seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə məlumat lövhələrində yerləşdirilməsini nəzərdə tutsa da, bəzi məntəqələrdə lövhələrin quruluşu və yeri qanunvericiliyin tələblərinə cavab verməyib.
16 saylı Yasamal ikinci seçki dairəsinin 4 və 11 saylı məntəqələri Bakı Dövət Universitetinin binasındadır. Universitetə girişə isə yalnız tələbə bileti ilə icazə verilir. Bu səbəbdən seçicilərin məntəqələrdə yerləşdirilən siyahılara çatımlılığı böyük ölçüdə məhdudlaşdırılıb. Oxşar hallar 22 saylı Nəsimi ikinci seçki dairəsi ərazisində yerləşən Azərbaycan Tibb Universitetindəki seçki məntəqələrində də müşahidə edilib.
Bəzi məntəqələrdə seçici siyahılarının bu mərhələdə açıq yerlərdə yerləşdirilmədiyi müşahidə edilib. Məsələn, 15 saylı Yasamal birinci seçki dairəsinin 14 saylı məntəqəsi, 16 saylı Yasamal ikinci seçki dairəsinin 2 saylı məntəqəsi, 31 saylı Suraxanı ikinci seçki dairəsinin 30 saylı məntəqəsi, 45 saylı Abşeron seçki dairəsinin 7 saylı məntəqəsi, o cümlədən, 22 saylı Nəsimi ikinci seçki, 23 Nəsimi-Səbail, 29 saylı Səbail və 110 saylı Zaqatala seçki dairələrinin bir sıra məntəqələrində seçici siyahıları məlumat lövhələrinə yerləşdirilməyib.
Bəzi məntəqələrdə seçicilər adlarını seçici siyahılarında tapa bilməyiblər. Bir çox məntəqələrdə isə seçici siyahılarında vəfat edən və Azərbaycandan köçən şəxslərin adlarına rast gəlinib. Məsələn, 36 saylı Xətai dördüncü seçki dairəsinin 10 saylı məntəqəsi, 12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsinin 2 saylı məntəqəsi, 59 saylı Salyan seçki dairəsinin 10 saylı məntəqəsi, 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 8 saylı məntəqəsi, 8 saylı Binəqədi birinci və 99 saylı Şəmkir kənd seçki dairələrinin bir sıra məntəqələrində belə hallar qeydə alınıb.

[16] Azərbaycan Respublikası Seçki Məcəlləsi, Maddə 48.

**c) Müşahidəçilərin qeydiyyatı**

Müşahidəçilərin qeydiyyatı ilə bağlı MSK müraciət edən vətəndaşları əsasən yubatmadan vəsiqə ilə təmin etsə də, bu qurumun iclaslarını müşahidə etmək məqsədilə xüsusi qaydada müraciət edənlərin ərizələrini ağlabatan səbəb göstərmədən rədd edib. Məsələn, SMDT-nin icraçı direktoru Məmməd Məmmədzadə, ictimai fəallar Əbülfəz Qurbanlı və Tural Ağayev MSK-nın iclaslarını müşahidə etmək üçün ərizə ilə müraciət etsələr də, bu qurum onların ərizələrinə rədd cavabı verib.

DSK-lara müşahidəçi olmaq üçün müraciət edən vətəndaşların ərizələrinə cavab verilməsi bəzi hallarda yubadılıb. Məsələn, 113 saylı Şəki şəhər seçki dairəsinin sədri Rəhman Qədirzadə müşahidəçi olmaq istəyən şəxsin sənədlərini qəbul etsə də, ona siyasi təzyiq edərək, müşahidəçilikdən imtina etməyi, əks halda gələcəkdə işdən çıxarılacağını bildirib. Eyni qaydada təzyiqlər 117 saylı Oğuz-Qəbələ və 81 saylı Beyləqan seçki dairələrində də qeydə alınıb.

110 saylı Zaqatala seçki dairəsində DSK üzvləri müşahidəçi olmaq üçün müraciət edən şəxslərə vəsiqələrin yerli icra hakimiyyəti ilə razılaşdırıldıqdan sonra veriləcəyini bildirib. Bu cür hallar 111 saylı Zaqatala-Balakən və 58 saylı Hacıqabul-Kürdəmir seçki dairələrində müşahidəçilərin qeydiyyatı zamanı yaşanıb.

Ümumiyyətlə, bu mərhələdə müşahidəçilərin həm MSK, həm də DSK-larda mövcud qeydiyyat qaydalarının köhnəldiyi, ərizələrin qəbulu ilə bağlı daha təkmil və müasir formaların gərəkliyi bir daha ortaya çıxıb.

**d) Şikayətlərin araşdırılması**

Seçki iştirakçıları onların hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) 3 gün müddətində seçki komissiyalarına, seçki komissiyalarının qərarlarından isə məhkəmələrə şikayət edə bilərlər.[17] Təşviqat dövründə DSK-lara daxil olan şikayətlər əsasən erkən təşviqat, namizədlərin plakatlarının məhv edilməsi, icra strukturlarının namizədlərə təzyiq göstərməsi, onların seçicilərlə görüşlərinə müdaxilə etməsi halları ilə bağlı olub.

Rəsmi açıqlamaya görə, MSK təşviqat qaydalarının pozulması ilə bağlı 14 şikayətə baxaraq 5 şikayətçinin müraciətini təmin etməyib, 7 şikayətçinin müraciəti təmin edilərək 4 namizədə xəbərdarlıq edilib. Şikayətlərdən 6-sı bir namizədə qarşı olub. Belə ki, 112 saylı Qax seçki dairəsindən 2-si namizəd olmaqla 6 nəfər şəxs digər namizəd Əhməd Şahidovun hərbçilər qarşısında çıxışının təşviqat qaydalarını pozduğunu iddia edərək MSK-ya şikayət veriblər. MSK şikayətləri əsaslı sayaraq Əhməd Şahidova xəbərdarlıq edib.

29 saylı Səbail seçki dairəsindən isə namizəd Bəxtiyar Hacıyev yanvarın 24-də digər namizəd Nigar Arpadarainin qanunvericiliyə zidd olaraq 6 saylı məktəbdə müəllimlərlə görüş keçirməsi ilə bağlı DSK-ya şikayət verib. Eyni zamanda Nigar Arpadarai təşviqat kampaniyasının qaydalarını pozaraq erkən təşviqat apardığı iddiası ilə Bəxtiyar Hacıyevdən şikayət verib. DSK hər iki namizədə xəbəradarlıq edib.

[17] Azərbaycan Respublikası Seçki Məcəlləsi, Maddə 112

31 saylı Suraxanı ikinci seçki dairəsindən Milli Dirçəliş Hərəkatı Partiyasının namizədi, partiya sədri Fərəc Quliyev eyni dairədən müstəqil namizəd Mehman Hüseynova namizədliyini geri götürməsi qarşılığında 15000 AZN pul təklif edib. Mehman Hüseynov bununla bağlı MSK-ya şikayət edib. MSK bununla bağlı Fərəc Quliyevə xəbərdarlıq edib.

## VI. Nəticələr və Tövsiyələr

SMDT 9 fevral 2020-ci il parlament seçkiləri üzrə seçkiqabağı təşviqat mərhələsinin müşahidəsi əsasında qeydə aldığı halları təhlil edərək, aşağıdakı nəticələrə gəlib:

- Seçkiqabağı təşviqat dövründə siyasi azadlıqların müdafiəsi yönündə vəziyyət dəyişməyib, ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqlarına məhduiyyətlər aradan qalxmayıb, habelə siyasi motivlərlə həbsdə olan şəxslər azad olunmayıb;
- Deputatlığa namizədlərin dövlət televizyaları, o cümlədən İctimai Televiziyada efir vaxtından istifadəsi üçün əlverişli maliyyə şərtləri təmin edilməyib. Bu mərhələdə televiziyalarda təşkil olunan müzakirələr ölkədə siyasi plüralizmin təmin edilməsi üçün yetərli olmayıb və seçki prosesinin obyektiv işıqlandırılmasını təmin edilməyib;
- MSK seçici siyahılarının dəqiqləşdirilməsi üçün internet axtarış və Qaynar xətdən istifadə qaydalarını təkmilləşdirsə də, bəzi MnSK-ların davamiyyətsiz çalışması seçici siyahılarının təqvim planı çərçivəsində dəqiqləşdirilməsinə məhdudiyyətlər yaradıb;
- Yerli müşahidəçilərin qeydiyyatı prosesi yubanmalar və məhdudiyyətlərlə müşayiət olunub;
- 2015-ci il parlament seçkiləri ilə müqayisədə siyasi fəallıq artsa da, ölkəboyu milli səviyyəli seçki kampaniyası müşahidə olunmayıb, bəzi seçki dairələrində isə seçicilərin alternativ seçim imkanları məhdudlaşıb;
- Seçkiqabağı təşviqat prosesində yerli icra orqanlarının seçki prosesinə müdaxilələri, habelə inzibati istifadə halları qeydə alınıb.

SMDT 9 fevral 2020-ci il parlament seçkilərinin növbəti mərhələsi – seçki günü səsvermə və səslərin sayılması prosesinin demokratik qaydada təşkili ilə bağlı aşağıdakıları tövsiyə edir:

- Seçki komissiyaları seçici siyahılarının dəqiqləşdirilməsi üzrə seçicilərə maneəsiz və normal şərait yaratmalıdır;
- Seçki komissiyaları seçicilər, müşahidəçilər və namizədlərin nümayəndələrinə təzyiqlərin baş verməməsi üçün müvafiq şəraiti təmin etməlidir;
- Seçki günü səsvermə və səslərin sayılması proesinə yerli icra strukturları və dövlət büdcəsindən maliyyələşən digər qurumların müdaxilələrinin qarşısının alınması üçün hakimiyyət siyasi iradə nümayiş etdirməli, seçki komisisiyaları müstəqilliyini və obyektivliyini təmin etməlidir;
- Seçkiqabağı təşviqat prosesində baş vermiş hüquq pozuntularına görə müvafiq şəxslər məsuliyyətə cəlb olunmalıdır.

SMDT İdarə Heyəti

Bakı, Azərbaycan 6 fevral 2020-ci il

Əlaqə:
E-poçt: emc.az2001@gmail.com
Telefon: +994503334674
Veb səhifə: www.smdtaz.org
Twitter: SMDT_EMDS

1 saylı Əlavə

İrəli sürülən namizədlərin siyasi mənsubiyyəti
(son 3 parlament seçkiləri üzrə)




Seçkilərə ən çox namizədlə qoşulan siyasi partiya və qeyri-rəsmi bloklar




Mənbə: MSK-nın veb saytı

2 saylı Əlavə

Qeydə alınmış pozuntu hallarının təsnifatı

| N. | Dairələr | Aşkarlığın pozulması | Təşviqat materiallarının zədələnməsi | İnzibati resurslardan istifadə | Seçki iştirakçılarına təzyiqlər | Seçici siyahılarında çatışmazlıqlar | Namizədlərə münasibətdə bərabərlik prinsipinin pozulması |
|---|---|---|---|---|---|---|---|
| 1 | 8 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | ✓ | |
| 2 | 9 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 3 | 10 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | | ✓ | ✓ |
| 4 | 11 saylı Seçki Dairəsi | | | | ✓ | | |
| 5 | 12 saylı Seçki Dairəsi | | ✓ | | | ✓ | |
| 6 | 13 saylı Seçki Dairəsi | | | ✓ | | | |
| 7 | 14 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 8 | 15 saylı Seçki Dairəsi | | ✓ | | | | |
| 9 | 16 saylı Seçki Dairəsi | ✓ | ✓ | | | | |
| 10 | 17 saylı Seçki Dairəsi | | | ✓ | ✓ | | |
| 11 | 19 saylı Seçki Dairəsi | | ✓ | | | | |
| 12 | 20 saylı Seçki Dairəsi | ✓ | ✓ | | | ✓ | |
| 13 | 21 saylı Seçki Dairəsi | ✓ | | ✓ | | | |
| 14 | 22 saylı Seçki Dairəsi | ✓ | ✓ | | | | |
| 15 | 23 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | | ✓ | ✓ |
| 16 | 24 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 17 | 25 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | ✓ | | |
| 18 | 26 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 19 | 27 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 20 | 28 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 21 | 29 saylı Seçki Dairəsi, | ✓ | ✓ | ✓ | | | |
| 22 | 30 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | | |
| 23 | 31 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | ✓ | |
| 24 | 32 saylı Seçki Dairəsi | | ✓ | | ✓ | | |
| 25 | 33 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | ✓ |
| 26 | 34 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | |
| 27 | 35 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 28 | 36 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | ✓ | |
| 29 | 37 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| 30 | 38 saylı Seçki Dairəsi | | | ✓ | ✓ | | |
| 31 | 40 saylı Seçki Dairəsi | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| 32 | 41 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | | ✓ |
| 33 | 42 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | | |
| 34 | 46 saylı Seçki Dairəsi | | | ✓ | ✓ | | |
| 35 | 47 saylı Seçki Dairəsi | ✓ | | ✓ | ✓ | | |
| 36 | 48 saylı Seçki Dairəsi | ✓ | | ✓ | | | |
| 37 | 53 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | | ✓ |
| 38 | 57 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | | |
| 39 | 58 saylı Seçki Dairəsi | | | | | | |
| 40 | 59 saylı Seçki Dairəsi | | | ✓ | | ✓ | |
| 41 | 60 saylı Seçki Dairəsi | | | | ✓ | | |
| 42 | 63 saylı Seçki Dairəsi | | | ✓ | | | |
| 43 | 65 saylı Seçki Dairəsi | | | ✓ | | | |
| 44 | 68 saylı Seçki Dairəsi, | | ✓ | ✓ | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 45 | 70 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | ✓ | |
| 46 | 71 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | |
| 47 | 72 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | |
| 48 | 73 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | | ✓ | |
| 49 | 74 saylı Seçki Dairəsi | ✓ | | ✓ | | ✓ | |
| 50 | 75 saylı Seçki Dairəsi | | ✓ | | | | |
| 51 | 76 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | | ✓ | |
| 52 | 77 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | | ✓ | |
| 53 | 79 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | |
| 54 | 80 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | | | |
| 55 | 81 saylı Seçki Dairəsi | ✓ | ✓ | ✓ | ✓ | | |
| 56 | 82 saylı Seçki Dairəsi | | | | ✓ | | |
| 57 | 85 saylı Seçki Dairəsi | | | ✓ | | | |
| 58 | 86 saylı Seçki Dairəsi | | ✓ | | ✓ | | |
| 59 | 87 saylı Seçki Dairəsi | | ✓ | | ✓ | | |
| 60 | 88 saylı Seçki Dairəsi | | | | ✓ | | |
| 61 | 89 saylı Seçki Dairəsi | | | ✓ | ✓ | | |
| 62 | 90 saylı Seçki Dairəsi | ✓ | | ✓ | ✓ | ✓ | |
| 63 | 92 saylı Seçki Dairəsi | ✓ | | ✓ | | | |
| 64 | 93 saylı Seçki Dairəsi | ✓ | | ✓ | | | |
| 65 | 95 saylı Seçki Dairəsi | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| 66 | 97 saylı Seçki Dairəsi | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| 67 | 98 saylı Seçki Dairəsi | | | | | | ✓ |
| 68 | 99 saylı Seçki Dairəsi | | | ✓ | | ✓ | |
| 69 | 103 saylı Seçki Dairəsi | | | ✓ | ✓ | | |
| 70 | 104 saylı Seçki Dairəsi | | | | ✓ | | |
| 71 | 105 saylı Seçki Dairəsi | | | ✓ | | | |
| 72 | 107 saylı Seçki Dairəsi | ✓ | | ✓ | | | ✓ |
| 73 | 110 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | | ✓ |
| 74 | 111 sayı Seçki Dairəsi | | | | | | |
| 75 | 113 saylı Seçki Dairəsi | | ✓ | ✓ | | | ✓ |
| 76 | 114 saylı Seçki Dairəsi | | ✓ | ✓ | ✓ | | |
| 77 | 115 saylı Seçki Dairəsi | | | ✓ | | | |
| 78 | 117 saylı Seçki Dairəsi | | | ✓ | | | |
| 79 | 118 saylı Seçki Dairəsi | | | ✓ | | ✓ | |
| 80 | 119 saylı Seçki Dairəsi | ✓ | | ✓ | ✓ | | |